# Skaut lideri olmaq




## Qeyri-formal təhsil təcrübəsi...

Son illərdə təhsil sahəsində reallaşdırılan layihələr, təşkil edilən müsabiqələr yeni ideyaların gerçəkləşdirilməsi, məktəb mühitində canlanmanın yaranması təhsilin daha cəlbedici, fərqli yanaşmaların olması təşəbbüskarlığın artırılması baxımından yüksək qiymətləndirilə bilər. Xüsusilə qeyd olunmalıdır ki, həyata keçirilən hər bir layihənin nəticələrindən müəllimlərlə yanaşı, şagirdlər də faydalanır ki, bu da onların həm gələcək təlim nailiyyətlərinə, həm də geniş dünyagörüşünə malik, hərtərəfli inkişaf etmiş Azərbaycan vətəndaşı olaraq yetişməsinə müsbət təsir göstərir.

Bu yazımızda Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən “Təhsildə könüllü fəaliyyətin təşkili” qrant müsabiqəsində uğur qazanan və artıq reallaşdırılmasına start verilən belə uğurlu işlərdən biri – “Ümumtəhsil məktəblərində skaut klublarının yaradılması” adlı layihədən söz açacağıq.

Layihə barədə “Azərbaycan müəllimi”nə danışan Skautlar Assosiasiyasının Milli Baş Müvəkkili (Baş katibi) Ülvi Məmmədov deyir ki, müsabiqəyə təqdim etdikləri layihənin uğur qazanacağı onlar üçün gözlənilməz olub: “Elm və Təhsil Nazirliyinin müxtəlif assosiasiyalar, ictimai birliklər, qurumlarla əməkdaşlıq etməsi, onların təhsildə müəyyən layihələrlə iştirakına şərait yaratması olduqca təqdirəlayiqdir.

Azərbaycan Skautlar Assosiasiyasının fəaliyyətinin başlıca məqsədi gənclərimizin vətənpərvər, kamil və layiqli Azərbaycan vətəndaşları kimi formalaşdırılmasına kömək göstərməkdir. Bundan başqa, skautlar qeyri-adi vəziyyətlərdən çıxış üsullarını, dağçılıq və s. bu kimi idman sahələrinin müasir avadanlıqlarından istifadə və yaralıya ilk tibbi yardım göstərmək qaydalarını öyrənirlər”.

Ülvi Məmmədov müsabiqədə uğur qazanan “Ümumtəhsil məktəblərində skaut klublarının yaradılması” adlı layihənin təhsil sahəsində yeni bir perspektiv yaradaraq şagirdlərimizin qeyri-formal təhsil təcrübəsini skaut metodu ilə yaxşılaşdırmaq, onların fiziki, intellektual, xarakter, emosional, sosial və mənəvi inkişafını dəstəkləmək məqsədi daşıdığını söyləyir:

“Skaut səriştəsaslı təhsildə kök salmış qeyri-formal təhsil təcrübəsidir. Bu nə deməkdir? Bilirik ki, formal təhsil yüksək strukturlaşdırılmış və hamımıza tanış olan ibtidai, orta və ali təhsil sistemində verilir. Qeyri-formal təhsil əyləncə, macəra, özünükəşf, qarşılıqlı əlaqə və təcrübə vasitəsilə öyrənməkdir. Hər bir skaut təşkilatının əsas sütunu skautlar olsa da onları yetişdirən, inkişaf etməsində birbaşa zəhməti keçən, öz cığırlarını tapmasında, gələcəyə uğurlu addımlar atmasında, əsl skaut dəyərlərinin mənimsənilməsində dəstək göstərən, ailə və məktəb arasındakı boşluqları tamamlamaq üçün böyük əziyyəti olanlar isə skaut liderləridir. Və biz də reallaşdırdığımız bu layihəmiz vasitəsilə əsl skaut lideri kimi yetişmək, gələcəyimiz olan uşaq, yeniyetmə və gənclərin inkişafına töhfə vermək, ən əsası öyrədərək öyrənmək istəyənlərə imkanlar yaradacağıq”.

Artıq fevralın 19-da Gənclər Təşkilatlarının Resurs Mərkəzində “Ümumtəhsil məktəblərində skaut klublarının yaradılması” layihəsi və Milli Təlim Proqramı çərçivəsində “MTP010-TL24-2” təməl liderlik təliminin iştirakçıları, namizəd skaut liderləri üçün ilkin skaut təlimi baş tutub.

Həmsöhbətimiz bildirib ki, ölkəmizin 14 rayon və şəhərindən olan namizəd skaut liderləri 3 sessiyadan ibarət təlimin birinci sessiyasında “Dünyada Skautinq” mövzusunda biliklərini artırıblar. Sessiya Skautlar Assosiasiyasının böyük yaşlı üzvü, DHST-nin komitəsinin gənc məsləhətçisi Fatimə Əliyeva tərəfindən aparılıb.

İkinci sessiya Dünya Skaut Hərəkatı Təşkilatının “Zərərdən müdafiə” (Safe from Harm) siyasəti ilə bağlı olub. Burada Milli Komitə üzvü, DHST-nin konsultantı Ülkər Xanlarova təlimçi qismində çıxış edərək interaktiv təlim metodları ilə yeni bilik, bacarıq və dəyərəsaslı səriştələri iştirakçılara çatdırıb.



Ülvi Məmmədov tərəfindən təqdim edilən “Dəyişikliklərə hazır ol!” adlı üçüncü sessiyada müdavimlərin sualları cavablandırılıb.

Təməl liderlik təliminin isə cari ilin 21-25 mart tarixlərində Azərbaycanın dilbər guşələrindən olan Qubada həyata keçirilməsi planlaşdırılır. Bu təlimlərdə ölkəmizin ümumtəhsil məktəblərində fəaliyyət göstərən dəstə lideri olmaq istəyən 30 müəllim və təhsil işçisi iştirak etmək hüququ qazanıb.

Aparılan təlimlərin iştirakçılar tərəfindən böyük maraqla qarşılandığını qeyd edən Ü.Məmmədov layihədə iştirak edən ümumtəhsil məktəblərinin müəllimlərinin sonda fəaliyyət göstərdikləri məktəblərdə 30 nəfər şagirddən ibarət skaut klubu - dəstəsi yaradacaqlarını və Azərbaycan Skautlar Assosiasiyasına üzv qəbul olunmaqla, skaut kimi bütün imtiyazlara sahib olacaqlarını bildirib.

**Samirə KƏRİMOVA**

## Ümumi təhsil müəssisələrində idman həftəsi

1-7 mart tarixlərində 5 Mart — Bədən Tərbiyəsi və İdman Günü ilə əlaqədar elm və təhsil nazirinin müvafiq əmri ilə ölkənin bütün ümumi təhsil müəssisələrində idman həftəsi keçiriləcək.

Layihə çərçivəsində tərtib edilmiş proqrama əsasən, məktəblilərin iştirakı ilə gündəlik gimnastik hərəkətlər, müsabiqələr, yarışlar, maarifləndirmə görüşləri, şagirdlərin mükafatlandırılması və digər tədbirlər təşkil ediləcək.

Qeyd edək ki, “İdman həftəsi” layihəsinin keçirilməsində məqsəd şagirdlərin idmana olan marağını artırmaq və sağlam həyat tərzini təbliğ etməkdir.

Layihə təhsilalanların sağlamlığının möhkəmləndirilməsi, fiziki inkişafının təmin edilməsi, onlarda müsbət emosiyaların dayanıqlı olması, idman və bədən tərbiyəsinin inkişafı, həmçinin bu sahədə kütləviliyin təmin edilməsi istiqamətində təhsil sistemi qarşısında qoyulmuş hədəflər baxımından xüsusi əhəmiyyət kəsb edir.




# Daha çox tələbə futbolda

## Azərbaycan Tələbə Liqasında növbəti tur davam edir

Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyi 2008-ci ildən fəaliyyət göstərir. ATFF İB-nin məqsədi futbol idman növünə daha çox tələbələri cəlb etmək üçün optimal şərait yaratmaq, gəncləri sağlam həyat tərzinə istiqamətləndirmək, tələbə futbolçuların ustalıqlarını artırmaqdan ibarətdir. ATFF İB-nin vəzifələri tələbələrin futbol üzrə respublika və beynəlxalq yarışlarının keçirilməsini təşkil etmək, bədən tərbiyəsi və idman üzrə dövlət proqramına uyğun olaraq futbolu inkişaf etdirmək, ölkədə idmanın inkişafı ilə bağlı aparılan islahatları təbliğ etməkdir.

Azərbaycan Tələbə Liqası ATFF İB-nin 12 iyul 2023-cü il tarixli VI növbəti hesabat-seçki konfransında yaradılıb. Liqada 12 ali təhsil müəssisəsi iştirak edir.

Azərbaycan Tələbə Liqasının məqsədi ali təhsil müəssisələrinin tələbələri arasında futzal idman növünün təbliği və onlar arasında bu idman növünə marağın artırılması; perspektivli idmançıların aşkar edilməsi və onların ustalardan ibarət komandalara cəlb edilməsinə zəmin yaradılması; futzal üzrə yığma komandaların formalaşdırılması və həmin komandanın beynəlxalq yarışlarda iştirakının təmin edilməsidir.

Qeyd edək ki, Azərbaycan Tələbə Liqasının yarışları Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təşkilatçılığı, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi ilə həyata keçirilir. Cari ilin noyabr ayında start verilən yarışlara may ayında yekun vurulacaqdır.

Oyunları AFFA-nın Hakimlər Departamenti tərəfindən təyin edilmiş hakimlər idarə edir və hakimlik FİFA qaydaları əsasında həyata keçirilir.

Çempionata yekun vurularkən I yeri tutaraq qızıl medal alan komanda Avropada UEFA-nın universitetlər arasında keçirdiyi qitə çempionatında iştirak etmək hüququ qazanır.

Çempionatda “Ən məhsuldar oyunçu”, “Ən gənc oyunçu”, “Ən yaxşı qapıçı” nominasiyaları üzrə fərqlənən futbolçular isə AFFA tərəfindən mükafatla təltif olunurlar.

### Azərbaycan Tələbə Liqasında I dövrə

Azərbaycan Tələbə Liqasına 17 noyabr 2023-cü il tarixində start verilib. İlk oyun Azərbaycan Texniki Universitetinin idman zalında keçirilib. A qrupunda mübarizə aparan Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin komandalarının qarşılaşmasında oyun 2:2 hesabı ilə başa çatıb. Liqanın I dövrə oyunlarına 18 dekabr 2023-cü il tarixində yekun vurulub. Oyunların nəticələrinə görə, liqanın A və B qruplarında ən çox xal toplayan Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Azərbaycan Dövlət İqtisad Universiteti, Milli Aviasiya Akademiyasının komandaları birinci altılıqda, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Bakı Ali Neft Məktəbi, Bakı Slavyan Universiteti, Bakı Mühəndislik Universiteti, Bakı Dövlət Universitetinin komandaları isə ikinci altılıqda mübarizəni davam etdiriblər.

### Azərbaycan Tələbə Liqasında II dövrə

Liqanın 2-ci dövrə oyunları bu ilin fevral ayının 23-də keçirilib. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası və Azərbaycan Memarlıq və İnşaat Universitetinin komandalarının qarşılaşması olub. Maraqlı idman mübarizəsində keçən oyunda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının komandası 5:1 hesabı ilə qalib gəlib.

Yarış “CBC Sport” telekanalı tərəfindən canlı yayımlanıb.

### Tələbələr arasında futzal turniri

Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr edilmiş tələbələr arasında futzal turniri də cari ilin 20 fevral tarixində başlayıb. Futzal turnirinə 5 mart tarixində yekun vurulacaqdır.Turnirdə Azərbaycan Tələbə Liqasında çıxış etməyən ali və orta ixtisas təhsili müəssisələrindən 19 komanda mübarizə aparır. Oyunlar 5 qrup üzrə Bakı, Gəncə, Şirvan şəhərlərində keçirilir. Mart ayında yekun vurulacaq turnirin qaliblərinə təşkilatçılar tərəfindən mükafatlar təqdim olunacaq.

Turnir Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi ilə keçirilir.

**Rəşad ZİYADOV**